Salam,

Odlar yurdu, neft diyarı gözəl Azərbaycandan yazıram bu məktubu. Doğrusu, bu məktubu yazmaq mənim üçün həm çətin idi, həm də düşündürücü. İlk dəfədir sülh motivli məktub yazıram.

Hər kəsin sülhə yanaşması fərqlidir. Mənə görə sülh, insanlar arasında tolerantlılığın bərqərarıdır, təhlükəsizlikdir, inkişafdır, tərəqqidir, azadlıqdır. Nifrət toxumlarının kök saldığı, konfliktlərin hökm sürdüyü, müharibə şəraitində olan cəmiyyətlərdə isə həmin anlayışlar ya mövcud deyildir, ya da yarımçıq şəkildə öz əksini tapır. Ölkələrimiz arasındakı münaqişə hamıya məlumdur. Tarixdə və bu gün yaşananlar. Günahsız qətliamlar, qırğınlar, saysız–hesabsız itkilər və dağıntılar, yurd– yuvalarından didərgin salınmış sivil əhali, göz yaşları, kədərlər və iztirablar… Bütün bunlar dəhşətlidir, düzdür? Həmin dəhşətləri, faciələri yaşamış Azərbaycanın bu gün sülh ətrafında müzakirə aparması bu dəhşətləri görənlərin obyektindən bəlkə də, qəbul edilməzdir. Ancaq mən istərdim ki, tarix təkrarlanmadan, eyni müsibətləri yaşamadan Dağlıq Qarabağ problemi, xalqlar arasındakı düşmənçilik sona çatsın. Sosial şəbəkə üzərindən nifrət nitqləri, yersiz ittihamlar, jarqonlar olmasın. Bu gün ölkələrimizdə müharibə və orduya ayrılan vəsaitlər təhsilə, səhiyyəyə və inkişafını gözləyən digər sahələrə yönəlsin. Xalqların sosial, iqtisadi rifahı güclənsin. Tolerantlıq və dözümlülüyü artıraq. Mən istəyərəm ki, Azərbaycan vətəndaşı bu gün haradasa sivil Ermənistan vətəndaşı ilə qarşılaşdıqda özünü digər millətlərin yanında olduğu kimi təhlükəsiz, rahat hiss etsin. Bir çoxlarının utopik yanaşdığı sülh anlayışı və ədalət real əksini tapsın.

Sosial iş tələbəsi olaraq humanizm, sülh ideayalarını yüksək dəyərləndirirəm və sizi nifrət çağırışına yox, ədalətli sülhə dəvət edirəm.